

# Qazaxıstan Milli Kitabxanası

**Əhalisi - 16,7 milyon nəfər**
**Paytaxtı - Astana**
**İnzibati cəhətdən 14 vilayət, 84 şəhər, 159 rayon və 2042 aula bölünür.**
**Milli pul vahidi - təngə.**
**Milli bayramları:**
**25 oktyabr - Respublika günü.**
**16 dekabr - Müstəqillik günü.**

**Qazaxıstan Avroasiya kontinentinin lap dərinliyində yerləşir. Ərazisi 2724900 kv.km (1049150 kv mil) təşkil edir. Ölkə qərbdən şərqə doğru Xəzər dənizindən Altay vilayətinədək 3 min km və şimaldan cənuba doğru, Rusiya ilə sərhəddindən Orta Asiya respublikalarınadək 1,5 min km-dən çox uzanmışdır. Öz ərazisinə görə Avropa İttifaqının 12 ölkəsinin ərazisini arxada qoyur.**

Qazaxıstan Respublikası çoxmillətli dövlət olub, əhalisi 120 millətdən ibarətdir. Qazaxıstan prezident-parlament tipli unitar respublikadır. Prezident ölkənin dövlət başçısı və Ali Baş Komandandır.Ölkənin ilk prezidenti Nursultan Nazarbayev 1989-cu il iyunun 22-dən Respublikaya rəhbərlik edir.

Qanunvericilik hakimiyyəti Senat və Məclisdən ibarət iki palatadan təşkil edilmişdir.

Qazaxıstan - zəngin tarixi və mədəni irsə malik bir ölkədir. Avroasiyanın mərkəzində yerləşən Qazaxıstan qədim dünya sivilizasiyalarının qovuşağında qərarlaşmaqla bərabər, Şərq və Qərb, Avroasiyanın iri dövlətləri ilə iqtisadi, sosial, mədəni və nəqliyyat mübadiləsinin aparılmasında mühüm əhəmiyyətə malikdir.

## Milli Kitabxana

Qazaxıstan Respublikasının Milli Kitabxanası ölkənin tarixi-mədəni irsinin əsas özəyi və elm xəzinəsi olub, qazax xalqının mədəniyyət tarixində müstəsna əhəmiyyətə malik yerlərdən birini tutur.

"Qazaxıstan Sovet Sosialist Respublikasının Dövlət Kütləvi kitabxanasının təsis edilməsi haqqında" 12 mart 1931-ci il QSSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət heyətinin qərarı ilə 5 may 1931-ci ildən oxucuların istifadəsinə verilən bu kitabxana Qazaxıstanın böyük elmi metodik və elmi-tədqiqat mərkəzi, ölkənin məcburi depozitariyası, respublika daxilində bütün elm sahələri üzrə doktorluq və namizədlik dissertasiyaları, 1993-cü ildən MDB ölkələrində çıxan avtoreferatların və YUNESKO nəşrlərinin toplayıcısıdır.

Kitabxananın ilk direktoru Qazaxıstanın məşhur ictimai xadimi Uraz Djandosov olmuşdur. O, kitabxananın əsas fəaliyyət xəttini bütün qazax dilində nəşr olunmuş çap məhsullarının toplanmasında gördü. Həmin dövrdən kitabxana dövlət kitabsaxlayıcısı, qazax xalqının və Qasaxıstanda yaşayan digər xalqların yazılı sənədlərini toplayıb və daimi mühafizəedici funksiyasını daşımağa başladı.

1991-ci ildə ölkənin baş kitabxanası dövlətin dəyərli və əvəzedilməz müəssisəsi kimi Milli status adına layiq görüldü. İndiki dövrə qədər QR (Qazaxıstan Respublikası) Milli kitabxanasının fəaliyyət və prioritet sahələri aşağıdakı vəzifələrin icra edilməsinə istiqamətləndirilmişdi:

- fondların komplektləşdirilməsi və onların mü-

hafizə təminatı;

- keyfiyyətli kitabxana-informasiya xidmətinin təşkili;

- yeni informasiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsi;

- respublika və beynəlxalq kitabxana informasiya layihələrinə təşəbbüs göstərmək və onların ən məhsuldar proqramlarını işdə tətbiq etmək.

Milli kitabxana mədəni irs üzrə Dövlət proqramını həyata keçirmək üçün fəallıq göstərir və bu məqsədlə dünya kitabxanalarında və arxiv fondlarında olan yazılı abidələri aşkarlamaq məqsədilə biblioqrafik-axtarış aparatını təşkil edir.

1992-ci ildən kitabxana peşəkar beynəlxalq kitabxana təşkilatının və Beynəlxalq kitabxana assosiasiyasının (İFLA) üzvüdür. Vahid kitabxana məkanını yaratmaq və "Sərhəddə görüşmək" kimi humanitar və informasiya əməkdaşlığı üzrə Qazax-Rusiya layihəsinin üzvüdür.

1971-ci ildə istifadəyə verilən kitabxana binası xüsusi memarlıq ornamentinə görə öz dəsti-xətti ilə seçilir və qonaqpərvər Alma-Ata şəhərinə ucalıq gətirir.

## Qazaxıstan Respublikası Milli Kitabxanasının (QRMK ) beynəlxalq əlaqələri

Yeni tarixi şəraitə müvafiq olaraq XXI əsrin əvvəllərində Qazaxıstan Milli Kitabxanasının beynəlxalq kitabxana cəmiyyətində yeri və rolu əsasən kitabxana işində tətbiq edilən texnoloji innovasiyalardan, xarici siyasətin prioritet sahələrinə nüfuz etməsindən ibarət idi.

Milli Kitabxananın beynəlxalq əməkdaşlıq strategiyası kitabxananın daxili tələbatına uyğun irəli sürülən reallığa əsaslanır və öz maraqlarını müdafiə etməyə istiqamətlənmişdir. Ona görə də Qazaxıstanın Milli Kitabxanası beynəlxalq kitabxana siyasətində ölkədə əsas koordinasiyaçı rolunu oynadığına görə MDB və uzaq xarici ölkələrin aparıcı kitabxana strukturaları ilə mütəmadi əlaqələri həyata keçirir.

Beynəlxalq əlaqələrin məqsədi kitabxananın innovasiya sahəsində qarşılıqlı peşəkar mübadilə yaratmaq, Qazaxıstan xalqlarının maddi və mənəvi mədəniyyətini təbliğ etməkdir. 1992-ci ildən Milli Kitabxana kitabxana assosiasiyalarının beynəlxalq federasiyasının ( İFLA ) üzvüdür və hər il onun baş məclislərində, forumlarda və peşəkar proqramlarda iştirak edir. Onlardan biri "Dünya ölkələrinin mədəniyyət və təhsil sahəsində kitabxanaların rolu" adlanır. Qazaxıstanın müxtəlif regionlarının kitabxanaçıları İFLA-nın bu mötəbər konferensiyasında ilk dəfə iştirak etmişdir. Böyük innovasiya əhəmiyyətinə malik beynəlxalq forumlardan biri də 1987-ci ildə QRMK-nin təşəbbüsü ilə keçirilmiş "Arxiv kitabxana kolleksiyalarının mühafizə edilməsi" üzrə ilk Qazaxıstan konferensiyasıdır.

Avroasiya kitabxana Assambleyası ilə birlikdə kitabxana sənədlərinin yeni normalarının işlənib hazırlanması üzrə beynəlxalq tədbirin keçirilməsində QR Milli Kitabxanasının əlaqələndirici rolu xüsusi qeyd olunmalıdır. Milli Kitabxana MDB-nin mədəniyyət, elm, təhsil və informasiya sahəsində Parlamentlərarası Assambleyasının Daimi Komissiyası ilə əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsi olaraq MDB-nin iştirakçı dövlətləri üçün kitabxana kodeksi yeni redaksiyada qəbul olundu.

Praktiki metodika və müxtəlif ideyalar üzrə məhsuldar mübadilə əlaqələri kitabxana işçilərinin xarici səfərlərdə keçirilən görüşlərdə yaranır. Kitabxana mütəxəssisləri xarici və yerli təşkilatların qrantları, müxtəlif bank və xeyriyyə cəmiyyətlərinin vəsaiti hesabına dünyanın aparıcı kitabxanalarının iş təcrübəsi ilə yaxından tanış olmaq arzusunu gerçəkləşdirə bilmişlər. Milli Kitabxananın inkişafına yönəldilən büdcədən kənar vəsaitlər onun mühüm beynəlxalq fəaliyyət istiqamətlərini daha da genişləndirmişdir. Xarici kitabxanalarda təcrübə mübadiləsini keçirmək peşəkarlığın yüksəldilməsi baxımından əməkdaşlıq üçün böyük imkanlar açır.

Milli kitabxananın əməkdaşları ABŞ, Fransa, Almaniya, Türkiyə, Çin və digər ölkələrin mötəbər kitabxanalarında təcrübə keçmiş və yeni kitabxana texnologiyaları sahəsində biliklər əldə etmişdir. Məsələn, Fransa səfirliyinin maliyyə dəstəyinin köməyi ilə Milli Kitabxananın kitabxana kolleksiyalarının mühafizə mərkəzinin bir neçə əməkdaşı Fransa Milli Kitabxanasında təcrübə keçmiş, bərpa və konservasiya laboratoriyalarının iş prinsipləri, Şərq və əsasən türk yazılı abidələrinin əlyazmaları ilə yaxından tanış olmuşdur.

Onlar həmçinin Fransa Milli kitabxanasında və digər kitabxanalarda təcrübə keçdiyi müddət ərzində öz ölkəsi haqqında olan yazılı irsin biblioqrafik siyahısını hazırlamaqda "Mədəni irs" haqqında Dövlət proqramının realizə olunmasında dəyərli töhfələrini vermişdir.

Milli Kitabxana son illər beynəlxalq əməkdaşlıq sahəsində uğurlu və yaddaqalan nailiyyətlərə imza atmışdır. İqamətgahı Milli kitabxanada yerləşən QR-nın kitabxana assosiasiyası Amerika-Qazaxıstan birgə seminarı çərçivəsində "Elektron kataloqu bu gün: vəziyyəti və perspektivləri; kitab fondunun mühafizəsi; gələcək nəsillər üçün nəşriyyatların və kitabxanaçıların əməkdaşlığı və s." mövzularda dəyirmi masalar keçirilmişdir.

Milli kitabxananın rəhbər işçiləri müxtəlif ölkələrin milli kitabxanalarına dəvətlər almış, xarici səfərlərdə öz ölkələrini uğurla təmsil etmişlər. Xarici əlaqələr şöbəsinin rəhbəri Almaniyanın bir neçə kitabxanasında informasiya-mübadilə səfərində olduğu zaman Alma-Ata şəhərində kitabxana işçilərinin peşəkarlığını artırmaq məqsədi ilə seminarların keçirilməsi üzrə razılığın əldə edilməsinə müvəffəq olmuşdur.

Milli kitabxananın baş direktoru İran Milli kitabxanası və Milli arxivin direktorunun dəvəti ilə orada olduğu zaman QR-nın Milli kitabxanasında İran və Mərkəzi Asiya ölkələri xalqlarının mədəniyyətlərinin öyrənilməsi üzrə Mərkəzin yaradılması haqqında ümumi razılığa gəliblər.

Xarici həmkarlarla olan görüşlər qarşılıqlı əlaqələrin inkişafına təkan verir, mədəniyyət və kitabxana resurslarının inteqrasiya olunmasına xidmət göstərir, kitabxanaçıların bir-biri ilə ünsiyyət qurmasına sövq edir. Beynəlxalq əməkdaşlıq çərçivəsində yaranan birgə proqram və layihələr Qazaxıstanın kitabxana ictimaiyyəti və həm də Milli kitabxana üçün çox vacibdir.

### "Xalqın yaddaşı" proqramı

***Məqsədi:***

Qazaxıstanla əlaqədar milli əlyazma kolleksiyalarının və digər sənədlərin toplanması.

Həmin kolleksiyaların beynəlxalq məkana çıxışının təmin edilməsi.

### Proqramın vəzifəsi

Qazaxıstanla bağlı qazax dilində qazaxlar haqqında əlyazma və digər sənədlərlə fondun komplektləşdirilməsini müfəssəl surətdə aparmaq. Qazaxıstanın ölkəşünaslığı haqqında ümumdünya tarixi-kulturologiya biblioqrafiyasını tərtib etmək.

Qazax xalqının kitab tarixini də daxil etməklə Qazaxıstanın tarixini və mədəniyyətini işıqlandıran fundamental biblioqrafik işləri icra etmək. Qazaxıstanın əlamətdar və tarixi günlərinin xronologiyasını aparmaq.

"Respublikanın toplu kataloq" çərçivəsində Qazaxıstana aid yazılı və digər sənədlərin birləşdirilmiş biblioqrafik qeydlərini aparmaq.

Milli kolleksiyanın və onların biblioqrafik qeydlərini lazer kompakt - disklərə, elektron kataloqlara salmaq və internet vasitəsilə yaymaq.

Qazaxıstan haqqında biliklərin yayılmasını şöhrətləndirmək məqsədi ilə akademik kitab sərgilərinin keçirilməsini, biblioqrafik və referativ informasiyaların hazırlanmasını, təqdimat və digər tədbirlərin mütəmadi keçirilməsini təmin etmək.

Bu proqram 1992-ci ildə qəbul olunmuşdur.

### "Kitab və əlyazma abidələrinin mühafizə və konservasiyası"

***Məqsəd:***

Qazaxıstan Milli Kitabxanasında bir mədəni irs kimi kitab və əlyazma abidələrinin mühafizə edilməsinə və konservasiyasına nail olmaq.

### Proqramın vəzifəsi

- Respublikada əlyazma kitab abidələrinin hüquqi cəhətdən mühafizəsini təmin etmək;
- Sənədlərin mühafizəsini elmi - tədqiqata cəlb etmək;
- Sənədlərin bərpa və konservasiyası;
- Respublika depozitariya və sığorta fondunu yaratmaq.

Milli kitabxananın fondunda XII-XIX əsrlərə aid əlyazma və çap nəşrləri saxlanılır. Kitabxananın əsas vəzifəsi bu fondu gələcək nəsillər üçün qoruyub saxlamaqdan ibarətdir. Proqramı icra edəndə nadir kitabların və əlyazmaların bir hissəsini mikrosurətlərə köçürməyə, xarab olmuş nüsxələri bərpa etməyə, fondun təşkili üçün normativ- metodiki materiallarla təminatına imkan verəcəkdir.

### "Respublika avtomatlaşdırılmış informasiya resurslarının yaradılması"

***Məqsəd:***

Kompüter texnologiyalarından istifadə etməklə Qazaxıstanın bütün kitabxanalarında avtomatlaşdırılmış kitabxana-informasiya proseslərinin tətbiqi. Xarici məlumat banklarına çıxışın təmin edilməsi və şəbəkə vasitəsi ilə informasiyanın verilməsi.

***Proqramın vəzifəsi:***

- Daxili kitabxana kompüter şəbəkəsini yaratmaq;
- Kitabxanalarda elektron kataloq sistemini təşkil

etmək;

- Respublika üzrə vahid avtomatlaşdırılmış kitabxana-informasiya şəbəkəsinin yaradılmasına nail olmaq;
- Biblioqrafik, faktoqrafik və tam mətnli məlumat bazasını işləyib hazırlamaq;
- İnformasiyanın yazılması və qorunub saxlanılması üçün müasir daşıyıcılardan istifadə etmək (mikrofişlər, optik disklər, video kassetlər, audio kassetlər və s.)

### Qazaxıstanın mədəni irsi

"Mədəni irs" Dövlət proqramı QR-ın prezidenti N.A.Nazarbayevin təşəbbüsündən irəli gəlib, proqramın analoqu digər ölkələrdə yoxdur. Həmin proqramdan irəli gələn vəzifələri yerinə yetirmək məqsədi ilə Milli Kitabxananın əməkdaşları 2005-ci ildən başlayaraq Qərbi Avropanın kitabxanalarında və arxivlərində yazılı mənbələri aşkara çıxarmaq üçün elmi-axtarış işləri aparmış və onların surətlərini əldə etmişdir.

Sənədləri üzə çıxartmaq işi aşağıdakı istiqamətlərdə aparılmışdır: Qazaxıstan kitabı, əlyazmalar, Qazaxıstan və Mərkəzi Asiyaya aid mühüm biblioqrafik göstəricilər və kataloqlar; Fundamental tarixi əsərlər; Arxiv sənədləri; Qazaxıstanın müasir xarici istoqrafiyası (tarixi mənbələr haqqında elm); Elmi konferensiyaların materialları; XIX-XX əsrin əvvəllərində elmi jurnallarda dərc olunmuş materiallar; səyahətçilərin qeydləri və əsərləri, xəritələr, qravürlər, artefaktlar.

Yuxarıda göstərilən mənbələrin aşkara çıxarılması və alınması Qazaxıstan üçün tarixi-mədəni nöqteyi-nəzərindən əvəzsiz əhəmiyyətə malik olmaqla yanaşı, mütəxəssislər üçün də böyük elmi maraq doğurur.

### "Hindistan - Qazaxıstan elektron informasiya mərkəzi."

***Problemin qoyuluşu:***

Hindistan və Mərkəzi Asiya dövlətlərinin qədim və zəngin tarixi ənənələri xalqların bir-birinə inteqrasiya olunmasına xidmət edir. Qazaxıstan-Hindistan elektron informasiya mərkəzi bu ənənənin daha da möhkəmləndirilməsinə, onun davamlı inkişafı üçün stimul verir. Mərkəzin fəaliyyəti hər iki dövlətin maraqlarına uyğun mədəniyyətlərin zənginləşdirilməsinə xidmət göstərən vahid informasiya məkanın formalaşmasından ibarətdir.

Milli Kitabxananın nəzdində fəaliyyət göstərən "Mərkəzi Asiya-yeni vaxtın çağırışı" şəbəkə klubu işin səmərəliliyini artırır.

Birləşdirilmiş vahid elektron kitabxananın yaradılması Qazaxıstan vətəndaşlarını humanitar informasiya ilə təmin edir, ölkələrin mədəni potensialının, müştərək informasiyasının ümumi İnternet resurslarının yaradılmasını və davamlı təminatını gerçəkləşdirir.

***Layihənin məqsədi:***

Elektron kolleksiyanı, biblioqrafik və tam mətnli məlumat bazasını formalaşdırmaq, Hindistan-Qazaxıstan internet-resurs kataloqunu yaratmaq , İnternetdə təsvirləri, mətnləri, multimediya məhsullarını və s. yerləşdirmək. Maarifləndirici və mədəni mərkəzlərlə qarşılıqlı əlaqələrin və əməkdaşlıq imkanlarının möhkəmləndirilməsi (telekonferensiyalar, aparıcı alimlər, mədəniyyət xadimləri və s. ilə görüşlərin keçirilməsi.)

***Realizə etmək yolları:***

Hindistan-Qazaxıstan elektron informasiya mərkəzi öz fəaliyyətini aşağıdakı istiqamətlər üzrə inkişaf etdirəcəkdir:

- Hər iki ölkənin tarixi və mədəniyyətini öyrənmək üçün tarixi və bədii əhəmiyyətə malik nəşrlərin rəqəmsal məlumat bazasını yaratmaq;
- Mərkəzi WWW serverində qeyd etmək və İnternet şəbəkəsi ilə informasiya məlumat bazasına mütəxəssislərin çıxışını təmin etmək;
- Hindistan-Qazaxıstan informasiya mərkəzlərində və kitabxanalarında qurulmuş serverlərə rabitə çıxışını təmin etmək;
- Effektiv informasiya və texnoloji mübadilə resurslarını yaratmaq;
- Vaxtaşırı treninqlər, təcrübə mübadilələrinin və digər müxtəlif tədbirlərin keçirilməsi;

### Müdafiə Tədqiqatları və Analizi İnstitutu (MTAİ) Milli Kitabxananın tərəfdaşıdır.

***Ümumi informasiya:***

Nyu-Deli şəhərində yerləşən strateji və təhlükəsizlik məsələləri üzrə ixtisaslaşmış bu institut 1965-ci ildən fəaliyyət göstərir. Son illər institut müdafiə, milli, beynəlxalq təhlükəsizlik məsələlərini əhatə edən bütün anlamlarda tədqiqatlarını genişləndirmişdir. İnstitut Müdafiə və Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilir.

İnstitut avtonom səlahiyyətinə malik olduğuna görə aparılan tədqiqatlar da müstəqildir. Tədqiqatları aparmaqdan əlavə institut təlim proqramlarını da keçirir. Hindistan Parlamentinin müdafiə məsələləri üzrə daimi komitəsi institutda analiz edilən məlumatlardan çox səmərəli istifadə edir. İnstitut mətbuat, diplomatik korpus, hərbi nümayəndələr və elmi dairələrlə qarşılıqlı fəaliyyət göstərir. Müəssisə milli təhlükəsizlik məsələləri ilə maraqlanan elm və ictimai xadimlərə, siyasi liderlərə və parlament üzvlərinə də açıqdır. MTAİ həmçinin xarici tədqiqatçıların analiz aparmasına da imkanlar açmışdır.

#### Elmi-tədqiqat fakültəsi:

İnstitut təxminən 70 nəfər elm və tədqiqatçılardan ibarət çox fənli fakültəyə malikdir. Burada müxtəlif regionlar üzrə tədqiqatlar aşağıdakı sahələr üzrə aparılır:

1. BMT və Avropa.
2. Hərbi təhlükə, iqtisadi və enerji təhlükəsizliyi.
3. Rusiya və Mərkəzi Asiya.
4. Cənubi Asiya və Əfqanıstan.
5. Qərb ölkələri.
6. Daxili təhlükəsizlik.
7. Modelləşdirmə və simulyasiya.
8. ABŞ, hərbi qüvvələrə və strateji texnologiyalara nəzarət.
9. Çin və Şərqi Asiya.
10. Hərbi məsələlər.

#### Seminarlar:

Asiyada təhlükəsizlik məsələləri üzrə konfrensiya 35 ölkənin nümayəndələrinin iştirakı ilə hər il keçirilir. Vaxtaşırı nümunəvi seminarlar və dəyirmi masa diskussiyaları da keçirir.

#### Kitabxana

İnstitutun 80 mindən çox çap nüsxəsinə malik kitabxanası da fəaliyyət göstərir. Bundan əlavə bir sıra elektron jurnallar və İnternetə çıxışı yaxşı təmin olunmuşdur.

#### Məsələlər

İnstitut strateji analizlərin yekunlarını məcmu formasında çap edir. Burada olan informasiyalar mötəbər mənbələrdən götürülür və Hindistanın bir çox müəssisələri həmin informasiyalardan müvəffəqiyyətlə istifadə edir. Onun veb-saytı: www.idso <http://www.idso>-india.org.

#### YUNESKO

QR-nın Milli Kitabxanası 1996-cı ildən YUNESKO ilə məhsuldar və effektiv əməkdaşlıq edir. Hazırda Milli Kitabxana YUNESKO-nun "Dünyanın yaddaşı" proqramında fəal iştirak edir.

#### Proqramın məqsədi:

- Dünyanın yaddaşı ümumi kontekstində xüsusi əhəmiyyət kəsb edən məsələləri üzv-ölkələrinə ünvanlamaq;
- Öz sənəd irsini qoruyub saxlamaq üçün xalqların və kitabxanaların marağını yüksəltmək;
- Dünya ölkə və regional əhəmiyyətli sənəd irsini mühafizə edib gələcək nəsillərə çatdırmaqdan ötrü stimullaşdırıcı proseslərdən maksimum dəyərlənmək;
- Ən son texnoloji nailiyyətlərdən istifadə etməklə həmin irsdən böyük auditoriyaların maksimum faydalanmasını və informasiyalaşdırılmasını təmin edən icazə mexanizmlərini yaratmaq;
- Sənəd irsinin konsepsiyasını inkişaf etdirmək üçün veb-saytlar yaratmaq, SD və kompakt-disklər buraxmaq, albomlar, kitablar və ya bukletlər çap etdirmək və həmin məhsulların geniş yayımını təmin etmək.

#### İFLA (Kitabxana Assosiasiya və təşkilatların beynəlxalq federasiyası)

150-dən çox ölkənin 1.685 təşkilatını özündə birləşdirən İFLA-ya QR Milli Kitabxanası 1992-ci ildə daxil olmuşdur. Milli Kitabxana həmin mötəbər beynəlxalq təşkilata üzv olmaqla onun professional proqramlarında iştirak etmək hüququnu qazanmış oldu. İFLA-kitabxana peşəsinin aparıcı ideyalarını ifadə edir, ümumi məsələlərin birgə həllinə stimul verir, əməkdaşların ünsiyyət qurmasına, işgüzar məsələləri həll etməsinə, qabaqcıl texnologiyaların mübadiləsinə, qabaqcıl iş təcrübəsindən bəhrələnməsinə, informasiya resurslarından maksimum yararlanmasına xidmət edən bir təşkilatdır. QR-ın Milli Kitabxanasının baş direktoru İFLA-nın baş Sesiyasında "Qazaxıstanda etnososioloji problemlərin mütaliəsi" mövzusunda məruzə ilə çıxış etmişdir. 1995-ci ilin fevralında İcrayə bürosunun səyyar sesiyası Milli Kitabxananın təşəbbüsü ilə Alma-Ata şəhərində keçirilmişdir.

#### "Rux-Miras" almanaxı

Bu kulturoloji almanax "Mədəni irs" Dövlət proqramı konsepsiyasının realizə edilməsi məqsədi

ilə yaradılmışdır. Almanax Dövlət proqramının nəzəri-metodoloji orqanı kimi fəaliyyət göstərir.

Qazaxıstanın mədəni ideoloji proqramı ənənəvi mədəniyyətin, müasir kulturoloji nəzəriyyənin, dünya mədəni irsinin bazasına əsaslanaraq işləyib hazırlanmalıdır.

Düzgün seçim yolu "Mədəni irs" proqramını realizə etmək üçün prezident N.Nazarbayevin Qazaxıstan xalqına müraciətində daha aydın ifadə olunmuşdur: "Keçmişi dərk etməklə indiki zamanın mədəniyyətini hərtərəfli inkişaf etdirmək lazımdır."

2004-cü ilin yanvarında Milli Kitabxananın nəzdində fəaliyyət göstərən "Rux-Miras" ictimai birliyi fəaliyyətində aşağıdakı istiqamətləri əsas götürür:

1. Proqramın əsas vəzifələrini icra etmək üçün QR-in Milli Kitabxanası informasiya və mədəni maarifçilik fəaliyyətini həyata keçirmək, milli mədəniyyətin, incəsənətin və Qazaxıstan xalqlarının dillərinin inkişafına, Qazaxıstan haqqında biliklərin yayılmasına kömək göstərir.

2. "Mədəni irs" Dövlət proqramının həyata keçirilməsinə yardımçı olur.

3. Qazaxıstan vətəndaşlarının mənəvi inkişafı üçün kompleks proqramların hazırlanmasında və realizə olunmasında yaxından iştirak edir.

## "Rux-Miras" Dövlət proqramının realizə etmə istiqamətləri:

"Rux-Miras" maliyyə, investisiya, texniki yardım kanallarını cəlb etməklə Milli Kitabxanada aşağıdakı vəzifələrin reallaşdırılmasına çalışır:

- dünya bilik mənbəyinin və əhaliyə kitabxana xidmətinin bir hissəsi olan milli kitab fondunu inkişaf etdirməklə proqramın realizə olunmasına öz töhfəsini vermək;
- sənəd irsini gələcək nəsillərin maraqlarına uyğun müxtəlif informasiya daşıyıcılarına köçürmək və saxlamaq;
- respublika kitabxanalarının informasiya resurslarını birləşdirmək yolu ilə Qazaxıstanda vahid informasiya- kitabxana məkanı yaratmaq üçün Milli Kitabxananın fəaliyyətini dəstəkləmək;
- respublika kitabxana-informasiya sisteminin elektron şəbəkəsini yaratmaq;
- Qazaxıstan xalqlarının mədəniyyətinin dünya ölkələrinə inteqrasiya olunmasını dərinləşdirmək məqsədi ilə xarici tərəfdaşlarla birbaşa əlaqələri yaratmaq.

## Kitabxanaşünaslıq. Biblioqrafiya. Kitabşünaslıq.

"Rux-Miras" toplusunda nəzəri və metodoloji xarakterli elmi-məlumat yönümlü materiallar çap olunur. Prioritet mövzular: fəlsəfə, kitabxana fəaliyyətinin kulturoloji aspektləri, kitab tarixi, respublika və dünya kitabxanalarının tarixi, fondların formalaşdırılması və qorunması, kitabxana işinin informasiyalaşdırılması.

İldə 3 dəfə çıxan toplu elm və mədəniyyət sahəsində işləyən mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

● **M.MƏMMƏDOV,**
● **Y.QARALIYEV,**
***M.F.Axundov adına Milli Kitabxananın bölmə müdirləri***

## Ədəbiyyat

1. Библиотечная энсклопедия.- М., 2007. - С. 449-452
2. Бердичалиева Р.А. Место библиотек Казахстана в Социальной структуре общества // Китабхана-Библиотека.- 1995.- №5
3. Функции, проблемы, перспективы развитие Националной библиотека. - Алма-Ата. - 1992.

## İnternet resurslar

www.nlrk.kz <http://www.nlrk.kz>
<http://www.gpntb.ru/win/inter-events/crimea2000/doc/tom1/333/Doc25.HTML>
<http://www.nlrk.kz/page/php>
<http://www.azeri.ru/papers/news-azerbaijan/49369/>